DOI:10.30546/gdu.2023.221-226

**UOT: 37.01.**

# TƏHSİL VƏ ONUN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ

***p.ü.f.d., dosent Məmmədov Sabir Rüstəm oğlu,***
***k.t.ü.f.d., dos.v.i.e. Cəfərov Fazil Tatarxan oğlu,***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti Ağcabədi filialı***
***vilayetmemmedov1980@mail.ru***

**Xülasə:***Məqalədə təhsilin keyfiyyətinin yüksəldilməsi araşdırılması yolları, keyfiyyətə təsir göstərən mənfi cəhətlərin aradan qaldırılma metodları müəyyənləşdiril-miş, yeni axtarışlar aparılmış və təhsilin keyfiyyətini yüksəldən müasir fəal-interaktiv təlim üsullarından səmərəli istifadə edilməsi barədə ərtaflı məlumatlar verilmişdir. Təhsilin keyfiyyəti əldə olunan nəticələrin əvvəlcədən müəyyən olunmuş meyarlara nisbəti ilə müəyyən olunur. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici isə şagirdin təlim nəticələridir. Təhsildə keyfiyyətin müəyyən olunması şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi ilə şərtlənir.*

*Bununla bərabər ”Təhsil haqqında Azərbaycan Respubilkasının Qanunu”nun (Bakı-2010) və eləcə də “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın (Bakı-2013) qarşıya qoyduğu tələblərə yetərincə əməl etməyə çalışılmışdır.*

**Acar sözlər:** təhsilin keyfiyyət, inovasiya, fəal təlim metodları, pedaqoji proses, təhsil sisteminin inkişafı, təlim və tərbiyyə

**Keywords:** quality of education, innovation, active learning methods, pedagogical process, development of educational system, training and education

**Ключевые слова:** качество образования, инновации, активные методы обучения, педагогический процесс, развитие образовательной системы, обучение и воспитание

**Azərbaycanda təhsilinin keyfiyyətli olub-olmaması həmişə aktual mövzulardan sayılıb. Çünki həm dövlətin, həm cəmiyyətin, həm də təhsilalanların təhsil sisteminə sosial tələbi keyfiyyətli təhsildir. Elə bu səbəbdəndir ki, təhsil sahəsində aparılan bütün islahatların məqsədi məhz onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır.**

Şagirdin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından, şagirdin təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti, təhsil müəssisələrinin, təhsili idarəetmə strukturlarının və bütövlükdə ölkənin təhsil sisteminin fəaliyyətini də qiymətləndirmək mümkündür. Mütəxəssislər isə hesab edirlər ki, təlim nəticələrinin müsbət dinamikada inkişafı təhsil sahəsində aparılan islahatlarla birbaşa bağlıdır. Belə ki, bu sahədə hədəflərin düzgün müəyyənləşdirilməsi təhsilalanların keyfiyyətli təhsil alma tələbinin yerinə yetirilməsi üçün vacib şərt sayılır.

**Ölkə başçısı tərəfindən bir neçə il bundan öncə keyfiyyət nəticələrinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan, iqtisadi cəhətdən dayanıqlı təhsil sistemini yaratmaq məqsədilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın tətbiqi barədə sərəncam imzalanıb.** Sözügedən sənədin məzmununda insan kapitalının inkişafının iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil etməsi qeyd edilib. Belə ki, ölkənin inkişaf konsepsiya-sına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir.

Strategiyada təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir və vurğulanır ki, son 30-40 il ərzindəki elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki vərdişlərlə

DOI:10.30546/gdu.2023.221-226

zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiy-yətini itirməkdədir. Kurikulumların məzmunu texnoloji irəliləyişin gətirdiyi yenilikləri nəzərə almaqla daim inkişaf etdirilir ki, bu da müxtəlif təhsil pillələrində spesifik yanaşma tələb edir. Burada ümumi təhsil pilləsində şəxsiyyətin hərtərəfli formalaşdırılması prioritet olduğu halda, ali təhsildə əmək bazarının cari və gələcək tələbləri əsas götürülür. Ali təhsil kurikulumunun daimi inkişafı əmək bazarı subyektlərinin tələblərinin sistematik öyrənil-məsini vacib edir. Bu proses əmək bazarında iş təklif edən, istər dövlət, istərsə də qeyri-dövlət sektorunda fəaliyyət göstərən bütün subyektləri ali təhsil prosesində başlıca maraqlı tərəfə çevirib.Təhsilin keyfiyyət məsələsi bütün dövürlər üçün əsas sayılmışdır. Hər zaman təhsilinm keyfiyyəti diqqət mərkəzində olmuşdur. “ Təhsil haqqında Azərbaycan Respubilkasının Qanunu”nda Təhsilin keyfiyyət məsələsi haqqında deyilir:” Təhsilin keyfiyyət səviyyəsi hər bir tarixi mərhələdə ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni inkişafa bağlı tələblərdən irəli gəlir.

Təfsil olmasa, inkişaf da olmaz. “Təhsil haqqında Azərbaycan Respubilkasınnın Qanunun”nunda (2010) təhsil belə şərh edilir: sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsi kimi..” Bütün parametirləri nəzərə alaraq demək olar ki, təhsil tərk etməyin əsas yolu və acarıdır. Dərketmə və anlamanın səviyyəsi o zaman, artır ki, təhsil kəmiyyət və keyfiyyətcə yüksək olur. Bu da yeksək keyfiyyətli təhsil nəticəsində həyata keçir. Təhsilin ən ümdə vəzifəsi qrşıya qoyulmuş məqsədi həyata keçirməkdir. Cağdaş pedaqoji ədəbiyyatlarda təhsil dəyət (sərvət), sosial- mədəni fonemen, sistem pedaqoji proses, nəticə və sair kimi qiymətləndirilir[1:2].

Son dövrlərdə təhsilinin təşkilinə həm ölkəmizdə, həm də beynəlxalq miqyasda böyük diqqət yetirilir. Elmi-texniki tərəqqi insanların bilik və vərdişlərinin daim artırılması tələbini zəruriləşdirmiş, təhsilinin əhəmiyyətini daha da aktuallaşdırmışdır

**Tədqiqatın material və metodikası.**

İş ADPU--nun Ağcabədi filialının pedaqoji fakultəsinin pedaqogika, pisxologiya və onların tədrisi texnologiyası və dil- ədəbiyyar və onların tədrisi texnologiyası kafedrasında yerinə yetirilmiş, elmi-tədqiqat təcrübələrinin materiallarından və ədəbiyyat məlumatlarından istifadə edilmişdir.

XXI əsrdə təhsilimizin qarşısında qoyulan məsələlərdənən önəmlisi yenişəxsiyyətlər formalaşdırmağa xidmət etməkdir. Bu da Azərbaycan dövləti qraşısında öz məsuliyyətini dərk edən xalqın milli ənələlərinə və demoktatiya prinsiplərinə, insan hüquqları və azad-lıqlarına hörmət edən vətənpərvərlik və azərbaycancılıq ideyalarına sadiq olan müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir. Bağca yaşından başlayaraq uşaqları formalaşdırıb yuxarı siniflərə ötürmək onlarla təhsilə elmə maraq aşılamaq üçün müxtəlif metodlardan istifadə olunması səmərəli nəticələrə gətirib çxarır. Təhsi elə qurulmalıdır ki, təhsilə cəlb olunanların şəxsi keyfiyyətləri üzə çıxarılsın və onların müəyyən cəhdlərinin inkişafı üçün daha önəmli şəxsiyyət yönümlü olması təmin olunmalıdır.“Şəxsiyyət yönülü təhsili alanın mövcud təcrübəsinə arxalanmaqla onun şəxsi keyfiyyətlərinin formalaşması və üzə çixarılması üçün şərait yaradır, təfəkkürün inkişafına, yaradıcı, fəal, təçəbbüskar şəxsiyyətin təçəkkül tapmasına səbəb olur..

Ümumiyyətlə, təhsil haqqında danışarkən onun xarakterik cəhətlərini belə yekunlaşdırmaq olar: təhsil bütün tərəqqinin əsas və bünövrəsidir.

Təhsil strategiyasının uğurla həyata keçirilməsində və təhsilin keyfiyyətinin dayanıqlı yüksəlişində maraqlı tərəflərin cəlb olunmasını təmin edən səmərəli idarəetmə mühüm rol oynayır. Bu, ilk növbədə, bütün növ təhsil müəssisələrinin müstəqilliyinin artırılmasını, valideyn, şagird, tələbə və təhsil prosesinin digər iştirakçılarını geniş cəlb etməklə təhsil ocaqlarının idarə olunmasını, nəticəyönlü menecmentin və digər müasir idarəetmə texnologiyalarının prosesə tətbiqini tələb edir.

DOI:10.30546/gdu.2023.221-226

Təhsil sahəsinin yeni inkişaf mərhələsinə yüksəlməsi, keyfiyyətli kadr potensialının təmin olunması ölkənin inkişaf konsepsiyasının tərkib hissəsini təşkil edir. Bu baxımdan, ölkəmizdə təhsilin əhatəliliyi və keyfiyyət göstəriciləri istiqamətində müsbət dinamika müşahidə olunur. Mütəmadi olaraq məktəbəqədər təhsilin məzmununun təkmilləşdiril-məsi mexanizminin hazırlanması və onun müasir tələblərə uyğunlaşdırılması, ümumi təhsilin keyfiyyətinin artırılması məqsədilə müvafiq tədqiqatların aparılması və əldə olunmuş nəticələrin müəyyənləşdirilməsi bu istiqamədə atılan uğurlu addımlardır.

Bununla yanaşı, geniş dünyagörüşə, zəngin elmi biliklərə yiyələnmiş gənc nəslin yetişdiril məsi, müəllimlərin peşəkarlığının artırılması istiqamətində də zəruri işlər görülür, dünyada gedən müsbət tendensiyalar fonunda inkişaf etmiş ölkələrin təcrübəsi milli təhsil sistemində tətbiq olunur.

Təhsilin idarə olunmasında problemlərə toxunan strategiya başlıca problemlərdən biri kimi, təhsildə tənzimləmə, idarəetmə və nəzarət funksiyalarının dəqiq müəyyən edilməməsini qeyd edib. Belə ki, sənəd təhsil sistemini idarə edən orqanların səlahiyyət-lərinin, funksiyalarının və məsuliyyətinin dəqiq müəyyənləşməsi, idarəetmə prosesində şəffaflığın və maraqlı tərəflərin iştirakının təmin edilməsi zərurətini ortaya qoyub. Qeyd edək ki, təhsil sisteminin başlıca vəzifələrini müəyyənləşdirən strategiyanın əsas məqsəd ölkədə səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır.

İnsanın bu və ya digət tələbatını ödəyən müəyyən faydalılığa malik olan obyektiv hadisəyə dəyər deyilir. Təhsil də bəşəriyyətin əldə etdiyi ən böyük dəyərlərdən biridir. Pedaqoji dəyərlər başqa dəyərlər içərisindən öz xarakterik cəhətlərinə görə seçilir. Onun əsasını tərbiyyə və təhsil fəaliyyətinin spesifikliyi, onun sosial rolu tənzimləyir. Pedaqoji dəyərlər cəmiyyətin sosial, siyasi, iqtisadsi cəhtləri ilə bağlıdır. Tarixən formalaşır, təlabatla əlaqədar dəyişə bilit. Dəyərlər də zaman-zaman dəyişikliklərə uğurlayır. Təhsilin xeyli funksiyası var. Bu funksuyalar içərisində mədəni-hümanist əsas yerlərdən birini tutur. Fərdin şəxsi inkişafında təhsilin bu funksiyası xüsusi əhəmiyyət kəsb edir. XIX əsr realist rüs tənqidinin atası sayılan U.Q.Belinski demişdir:

“Təhsilinmmüxtəlif növləri içərisində ən yüksək nəticəni nənəvi-əxlaqi tıhsil tutur.

Tərbiyyə təhsildən üstündür, çünki, insanı tərbiyyə yaradır”. Ədibin dediyi bu müdrik fikirlər bu gün də öz əhəmiyyətini doğruldur. Təhsilin humanist məqsəd daşımasında onun komponetlərinin rolu böyükdür[3:4].

Təhsilin sosial-mədəni fonemen olması insanın elm və mədəniyyət aləminə inteqra-siya etməsinə şərairt yaradır. İnsan mədəni sərvətləri mənimsəməklə hər vaxt dəyişkən həyata uyğunlaşır və bununla bərabər fəal fəaliyyətə daxil olur. Təhsil vasitəsi ilə insanlar dünyanın elm və mədəniyyət xəzinəsi ilə tanış olur və ondan bəhrələnirlər. Təhsil özlüyündə bir sistem şəbəkəsidir.

Bu dövlət təhsil standartları, təhsilin idarəsinə orqanlarının cəmi kimi özünü göstərir. Bunun idarə edilməsini isə Elm vəTəhsil Nazirliyi “Təhsil haqqında Azərbaycan Respubilkasının Qanunun” nun qarşəya qoydurduğu tələblər əsasında icra edir. Dövlət orqanları təhsil sistemini idarə edilməsi üçün aşağıdakı işləri görür:

- ✓ Proqram və standartlar işləyib hazırlayır:
- ✓ Idarə və müəllimləri attestasiya edir:
- ✓ Təhsil infrasturukturlarının formalaşdırır:
- ✓ Təhsil otaqları şəbəkələrinin inkişafını proqnozlaşdırır:
- ✓ Təhsil sitemində ölkənin bircə və maliyyə sahəsinin qanunlarının təhsil sistemində icrasına nəzarət edir və s.

DOI:10.30546/gdu.2023.221-226

Bu icra mexanizmiləri vaxtaşırı dövrrün tələbinə uyğun tənzimlənir. Belə icra yolu təhsil sistemini mükəmməl işləməsinə şərait yaradır.

Nəhayət, son olaraq Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası "təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruriliyini" önə çəkdi. Bu məqsədlə təhsil müəssisələrində nəticə-yönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəflər əhatə edilib.

Ümumiyyətlə, keyfiyyətli təhsil dedikdə təhsil standartlarına uyğun əldə olunan nəticələr başa düşülür. Yəni, qüvvədə olan təhsil qanunvericiliyinə əsasən təhsilin keyfiy-yət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə uyğun olaraq müəyyən edilir. Qanunda qeyd edilən müvafiq keyfiyyət göstəriciləri sisteminə isə nə az, nə çox-təhsil proqramları, abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza,infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s. daxildir. Razılaşaq ki, istənilən sahədə keyfiyyət anlayışı müəyyən olunmuş standartlara uyğunluğu ifadə edir. Təhsil-sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsi kimi dəyərləndirildiyindən deməli, keyfiyyətin də məhz nəticələr əsasında qiymətləndirilməsi birmənalıdır. Ona görə də qiymətləndirmənin düzgün aparılması vacibdir. Əks halda təhsilin keyfiyyəti ilə bağlı obyektiv mülahizə yürütmək çətin məsələyə çevrilir”.

İnsanın şəxsiyyət kimi formalaşması pedaqoji prosesdən kənarda yerinə yetirilə bilməz. Bunların hamısı pedaqoji proses fonunda həyata vəziqə ala bilər. Pedaqoji prosesi şərh edərkən profesor N.N.Kazımov deyir: “ Sistemləşdirilmiş biliklərin , bacarıq və vərdişlərin , habelə mənəvi keyfiyyətlərin adamlar tərəfindən nəqsədyönlü”, planlı və mütəşəkkil mənimsənilməsi pedaqoji prosesidir. Gənc nəsilin hazırlanmasında pedaqoji proses məqsədyönlü fəaliyyət sistemidir[5:6]. Onun məqsədi böyüyən nəslin gələcəkdə üzərinə düşən vəzifəni yetərincə yerinə yetirməyə xidmət etməkdir. Mahiyyət etibarı ilə pedaqoji məsələlər sosial prosesdir. Təlim və tərbiyyə pedaqoji prosesin komponetləridir. Onlar öz növbəsində bit-biri ilə əlaqədar üç prosesi birləşdirir:

1. Təlim-dərs və tədris:
2. Tərbiyə-tərbiyələndirir:
3. Tərbiyə olunan.Pedaqoki proses xeyli funksiyanı icra edir: İnformasiya: tərbiyəedici: inkişafedici: dəyər: sosial adaptasiya və s.

Ortaya çıxan məsələlərdən biri də pedaqoji prosesin nəcicəyönümlü olmasıdır. Təlimin nəticəyönümlü olması alınan biliklərin səmərəli olmasının göstəricisidir.

Təhsilin inkişafına nail olunarsa, onun keyfiyyətinin də yüksəlməsi ön plana çıxır.

Təhsilin keyfiyyətinin yüksəldilməsi bir çox amillərlə səciyyələnən proses, kompleks tədbirlərlə əhatə olunan, intensiv inovasiyaların tətbiqi ilə bilavasitə əlaqələnən mürəkkəb əməliyyalar sistemindən ibarətdir. Təhsillə əlaqədar görülən bütün inovasiyalar, fəal interaktiv təlimin müxtəlif üsullarından yeni təhsil texnologiyalarından istifadə olunmaqla təhsilalanların da xeyli stimullarının, motivlərinin və təlabarlarının formalaşmasına təsir göstərməli və nəticədə keyfiyyətin yüksəlməsinə gətirib çıxartma-lıdır. Mürəkkəb struktura malik olan pedaqoji prosesin siteminin əməliyyatı çətin icra olunandır. Bunu icra etmək üçün müıllimlərlə şagirdlərin arasında qarışıqlı əlaqə yaranır. Ümumiyyətlə yeni təlim texnologiyaları aşağıdakı prinsiplərə əsaslandıqda iştirakçıların yaradıcılıq qabiliyyətini inkişaf etdirməyə imkan verir:

- ✓ bilik və bacarıqların müstəqil şəkildə əldə edilməsinə;

DOI:10.30546/gdu.2023.221-226

- ✓ iştirakçıların sosial inkişafına səbəb olacaq kooperativ təlimə;
- ✓ təfəkkürün inkişafına səbəb olacaq konstruktivizmə;
- ✓ biliklər1in müstəqil əldə edilməsi üçün şəraitin yaradılmasına;.

Yuxarıda qeyd olunanlarla bərabər yeni təlim texnologiyalarının tətbiq edildiyi dərslərdə qrup forması üstünlük təşkil edir[7]. Burada mahiyyət də dəyişir, qrupu təşkil edən iştirakçılar qarşılıqlı ünsiyyət, mülahizə zəminində verilmiş tapşırığı icı

- ✓ təfəkkürün stimullaşdırılması,
- ✓ aparıcı və iştirakçı birgə əməkdaşlığı,
- ✓ iştirakçının qaqbiliyyətlərinə inam,
- ✓ onların qarşılıqlı hörmət və etibarı,

Müasir təlim onilliklər ərzində yaranan və özünün müsbət tərəfləri ilə bu gündən müraciət edilən ənənəviliyi inkar etmir. Ancaq köhnəlmiş və bu günün tələbləri ilə həmahəng olmayan metodlardan uzaqlaşmaq tələbi ortaya çıxır. Pedaqoji prosesdə inovasiya bu prosesin müxtəlif şərhlərində yekliliyin yaranmasına xidmət etməsidir.

Şəffaf, demokratik və keyfiyyətli idarəetmə sistemi ilə vəhdətdə daha yüksək nəticələr əldə olunmasına şərait yaradılır. Bütün bu tədbirlərin ardıcıl və sistemli şəkildə təşkil olunub həyata keçirilməsi, həmçinin nəticələrin müzakirə olunub ümumiləşdirilməsi, mövcud problemlərin aradan qaldırılması üçün məqsədyönlü işlərin görülməsi keyfiyyətin yüksəldilməsinə öz töhfəsini verir. Məktəb rəhbərliyi bu məsələdə obyektiv, ardıcıl, sistemli və inkişafyönümlü tədbirlər həyata keçirilməsinə rəhbərlik edir və həm təhsilalanlar, həm təhsilverənlər, həm də valideynlərin bu prosesdə iştirakına şərait yaradılır.

Təhsildə keyfiyyətə təsir edən və onu yüksəltməyə yönələn bütün müsbət cəhtlər nəzərə alınması hər zaman məqsədəuyğun hesab edilmişdir[6:7].

Təhsildə yeniləşmə prosesi elmi əsaslarla bağlıdır. Bu zaman təhsilin keyfiyyətinin yüksəlməsi elmi nəticələrə söykənir və təsdiqini təcrübədə tapır.

Azərbaycan Prezidenti İlham Əliyevin gələcəyə hesablanmış məqsədyönlü siyasəti xalqımızın, dövlətimizin milli maraqlarına xidmət edir. Milli təhsil sisteminin inkişaf etdirilməsi və müasir dünya standartları səviyyəsinə yüksəldilməsi isə bu maraqların

təmin olunmasında əsaslı rol oynayır.

Məqalədə nəticə olaraq qeyd etmək olar ki, aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki,təhsilin keyfiyyətini yüksəltmək üçün müasir dövrün qarşıya qoyduğu bütün problemlər nəzərə alınmalı və onun aradan qldırılması yolları elmi-praktik dəlilərlə əsaslı şəkildə həll edilməlidir. Bununla bərabər müasir təlimin qarşıya qoyduğu fəal intiraktiv təlim üsulları, inkişafetdirici və nəticəyönümlü yollar, yeni təlim texnologiyalarından istifadə, yaradıcı mühitin təmin edilməsi, müəllimlərin fasilitasiya bacarıqlarının gücləndirilməsi və sairı məsələlərə inkişaf etdirilməlidir. Belə olan halda təhsilin keyfiyyətinin yüksəlməyə nail olmaq olar.

***Ədəbiyyat***

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.
2. Ağayev Ə., Talıbov Y., Eminov A., İsayev İ. Pedaqogika.Bakı, 2006.
3. Ağayev Ş. və b. İbtidai siniflərdə fəal təlimin nəzəri və praktik məsələləri. Bakı, 2007.
4. Nəzərov A., Məmmədov R. Pedaqoji ustalıq. Bakı, 2008
5. lyasov M.İ. (2018). Pedaqoji peşəkarlıq və müəllim səriştəliliyinin müasir problemləri. Bakı, Elm və təhsil.
6. Kazımov N. (2006). Məktəb pedaqogikası. Bakı, Çaşıoğlu.
7. Şirinova Y., MəmmədovaV. Müəllimlik peşəsi və pedaqoji məharət //Bakı, -2018. 216 s.

DOI:10.30546/gdu.2023.221-226

**ОБРАЗОВАНИЕ И ПОВЫШЕНИЕ ЕГО КАЧЕСТВА**

***Мамедов Сабир Рустам оглу, Джафаров Фазил Татархан оглы***

***Резюме***

В статье определены пути исследования повышения качества образования, методы устранения негативных моментов, влияющих на качество, проведены новые поиски и дана подробная информация об эффективном использовании современных активно-интерактивных методов обучения. которые улучшают качество образования. Качество образования определяется соотношением полученных результатов заранее заданным критериям. Основным показателем в определении качества образования являются результаты обучения студента. Определение качества образования обусловлено объективной оценкой достижений учащихся. В то же время были предприняты усилия по адекватному соблюдению требований «Закона Азербайджанской Республики об образовании» (Баку-2010) и «Государственной стратегии развития образования в Азербайджанской Республике» (Баку- 2013).

**EDUCATION AND IMPROVING ITS QUALITY**

***Mammadov Sabir Rustam, Jafarov Fazil Tatarkhan***

***Summary***

In the article, the ways of improving and researching the quality of education, methods of eliminating the negative aspects affecting the quality are defined, new searches were conducted and detailed information was provided on the effective use of modern interactive training methods that improve the quality of education.The quality of education is determined by the ratio of the obtained results to the predetermined criteria. Determining the quality in education is conditioned by objective assessment of student achievements. At the same time, efforts were made to adequately comply with the requirements of the "Law of the Republic of Azerbaijan on Education" (Baku 2010) and the "State Strategy for the Development of Education in the Republic of Azerbaijan" (Baku 2013).

***Rəyçi: fil.ü.f.d., dos. Vaqif Saleh oğlu Allahverdiyev***

***ADPU-nun Ağcabədi filialının “Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası” kafedrasının 11 sentyabr 2023-cü il tarixli iclası.***

***Daxil olduğu tarix 11 sentyabr***